
ƏCZAÇILIQ TOKSİKOLOGİYASI
VƏ KİMYA KAFEDRASI
DEPARTMENT OF PHARMACEUTICAL TOXICOLOGY AND CHEMISTRY

# ƏCZAÇILIQ TOKSİKOLOGİYASI VƏ KİMYA KAFEDRASININ İNKİŞAF STRATEGİYASI







2026–2030-cu illər ərzində Əczaçılıq toksikologiyası və kimya kafedrasının fəaliyyəti tədris prosesinin təşkili və həyata keçirilməsi, metodiki təminatın təkmilləşdirilməsi, təşkilati-metodoloji işlərin aparılması, elmi araşdırmaların genişləndirilməsi və ictimai fəaliyyətin inkişafı istiqamətində qurulacaqdır.

# KAFEDRA ÜZRƏ GÖRÜLƏN İŞLƏRİN ƏSAS İSTİQAMƏTLƏRİ

**Elmi-pedaqoji kadrların hazırlanması**

**Tədrisin təşkili**





**Əczaçılıq toksikologiyası və kimya kafedrasının fəaliyyəti tədris prosesinin müasir tələblərə uyğun şəkildə qurulmasından ibarətdir**

**Əməkdaşların peşəkar bilik və bacarıqlarının davamlı olaraq artırılması istiqamətində sistemli və məqsədyönlü tədbirlər həyata keçiriləcək**



# *Tədris-metodiki işlər üzrə*




**Kafedrada tədris prosesinin Türkiyənin ali təhsil sistemi ilə uyğunlaşdırılması və inteqrasiyası istiqamətində tədbirlər ardıcıl şəkildə həyata keçirilir, kurikulum və tədris proqramları beynəlxalq standartlara uyğun təkmilləşdirilir.**

**Tədris-pedaqoji sahədə Əczaçılıq fakültəsinin I, II, III və IV kurs, həmçinin Stomatologiya və İctimai Səhiyyə fakültələrinin I kurs tələbələrinə mühazirə və praktiki dərslərin yeni təsdiq olunmuş tədris proqramı əsasında müasir səviyyədə aparılması üçün zəruri şərait yaradılır**




**Kafedrada tədris prosesinin müasir tələblərə uyğun qurulması məqsədilə son illərdə qardaş Türkiyənin Hacəttəpə, Gazi, Anadolu və digər aparıcı universitetləri ilə əməkdaşlıq əlaqələri genişləndirilmişdir. Bu əməkdaşlıq çərçivəsində tədris proqramlarının Türkiyənin ali təhsil sistemi ilə uyğunlaşdırılması və inteqrasiyası istiqamətində işlər ardıcıl şəkildə davam etdirilir.**



Dərs prosesində fəal iştirak etmiş tələbələrdən kafedranın və fakültənin tələbə-elmi cəmiyyətində iştirakını təmin ediləcək.



Kafedra əməkdaşlarının dərslərdə qarşılıqlı iştirak etməsini, açıq mühazirə və praktika dərslərinin, eləcə də nümunəvi dərslərin təşkil olunmasına xüsusi diqqət göstəriləcək.

Tədris-metodiki iş sahəsində müasir səviyyədə və peşəkar səviyyədə dərsliklərin, dərs vəsaitlərinin və metodik göstərişlərin hazırlanması və nəşr edilməsi planlaşdırılır.





**Toksikoloji kimya ixtisası üzrə magistratura pilləsində ikiillik təhsil proqramı çərçivəsində yüksək ixtisaslı, müasir elmi bilik və praktik bacarıqlara malik magistrlərin hazırlanması həyata keçirilir.**




**2026–2030-cu illər üçün təsdiqlənmiş beşillik proqram əsasında elmi-tədqiqat fəaliyyətinin davam etdirilməsi üçün əlverişli şərait təmin olunacaq, aparılan tədqiqat işləri plana uyğun başa çatdırılacaq, namizədlər dissertasiya işlərini tamamlayaraq müdafiə edə biləcək və gənc mütəxəssislər kimi kafedranın fəaliyyətində özlərinə layiqli mövqe qazanacaqlar.**

**Həyata keçiriləcək elmi tədqiqatların nəticələrinin Beynəlxalq indeksləşdirilmiş elmi jurnallarda dərc olunması təmin ediləcək.**




**1.Yeni prioritet istiqamətlər üzrə elmi tədqiqatların planlaşdırılması və həyata keçirilməsi;**

**2. Beynəlxalq qrant layihələrinə qoşulmaq üçün Avropa və Asiyanın qabaqcıl Tibb və Əczaçılıq üzrə müvafiq ali təhsil müəssisələri və elmi-tədqiqat institutları ilə əlaqələrin qurulması;**



# H Ə D Ə F



4. Respublika və xarici qrant layihələrinə qoşulmaq üçün kafedranın elmi potensialının səfərbər edilməsi;

5. Beynəlxalq elmi resursların, açıq təhsil sistemlərinin və əczaçılıq sənayesi üzrə təcrübələrin elmi tədqiqat prosesinə inteqrasiyası;

6. Elmi və innovativ tədqiqat nəticələrinə dair yerli və beynəlxalq patentlərin alınması.



- Kafedranın nəzdində olan dərs otaqlarının və mühazirə zalının yüksək təminatlı və işlək vəziyyətdə saxlanması;
- Kafedrada kompüter texnologiyalarının təkmilləşdirilməsi və artırılması;
- Tədris prosesinin dəstəklənməsi və elmi tədqiqat işlərinin aparılması üçün beynəlxalq elmi bazalardan, elektron kitabxanalardan və əczaçılıq ixtisası üçün məlumat mənbələrindən istifadə olunması.